# ABŞ sülhü yox, müharibəni seçir

**"COP29 beynəlxalq konfransına evsahibliyi edəcəyimiz günə vaxt azaldıqca ölkəmizə qarşı qarayaxma kampaniyaları və təzyiq ritorikası artmaqdadır. Qərb Azərbaycanın dünyada artan nüfuzundan narahatdır və ərazilərimizdə suverenliyimizi bərpa edərək keçmiş məcburi köçkünləri öz yurdlarına qaytarmağımızı həzm edə bilmir".**
**Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Azər Badamov deyib. O bildirib ki, ölkəmizin uğurlarına sevinən və bizi təbrik edən dövlətlər dostlarımız, bundan məyus olanlar isə Azərbaycanı istəməyənlərdir.**



Oktyabrın 4-də Cəbrayıl sakinləri ilə görüşdə çıxış edən dövlət başçımız həm Ermənistanı yenidən silahlandıraraq regionda vəziyyəti gərginləşdirməyə çalışan dairələrə, həm də Ermənistana ciddi mesajlar verdi. Prezident ABŞ-nin azərbaycanofob və islamofob siyasətinin qəbulolunmazlığını da açıq şəkildə bildirdi. "Azərbaycan beynəlxalq hüququn pozulmasından ən çox əziyyət çəkən ölkələrdəndir. Torpaqlarımızın işğal altında olduğu 30 ildə ABŞ və Fransa Azərbaycanı işğalla barışmağa və alçaldıcı sülhə razılaşdırmağa çalışdı. Ermənistan 30 ildə 300-dən çox yaşayış məntəqəmizi yerlə yeksan edəndə, milli-mədəni irsimizi yer üzündən silərək 1 milyon azərbaycanlını öz yurdlarından qaçqın və məcburi köçkün salanda ABŞ səsimizə səs vermək əvəzinə, ölkəmizə sanksiyalar tətbiq edərək işğalçıya və cinayətkarlara haqq qazandırmağa çalışdı. Onların yaratdığı Minsk qrupu 28 ildə BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra etdirmək əvəzinə, siyasi teatr səhnələri quraşdıraraq pozulmuş hüquqlarımızın bərpası istiqamətində heç bir iş görmədi", - deyə o əlavə edib.

Deputat qeyd eidb ki, ABŞ Dövlət Departamentinin katibi ölkəmizlə sülh müqaviləsindən danışsa da, amma konqresə Azərbaycana sanksiyaların tətbiqi ilə bağlı məktub göndərib, məktub alır. Bu qədər riyakarlıq və ikiüzlülük olarmı?

Özünün suveren ərazilərini işğaldan azad etməsi və ermənilərin viran qoyduqları əraziləri bərpa edərək uzun illər ağır məcburi köçkün həyatını yaşamış insanları öz yurdlarına qaytarılması nə vaxtdan hüququn pozulması olub? Əgər Azərbaycanın suverenliyinin bərpası cinayətdirsə, niyə Ukraynaya silahlar verirsiniz və Rusiyanı ağır sanksiyalara məruz qoyursunuz? Əgər siz ölkələrin ərazi bütövlüyünün pozulmasını qəbuledilməz sayırsınızsa, onda bizim öz ərazilərimizin suverenliyini təmin etməyimizdən niyə narahatsınız? Əli dinc insanların qanına batmış cinayətkarlara haqq qazandırmaq onların törətdikləri cinayətlərə şərik olmaq deyilmi?

A.Badamov vurğulayıb ki, hazırda Azərbaycan dövləti siyasi və iqtisadi müstəqilliyini təmin edib, ölkəmiz sülhsevər siyasətini yürüdür və dost olmayan ölkələri də ədaləti dəstəkləməyə çağırır: "Bununla yanaşı, öz gücünü artırır və ölkəmizlə təzyiq dilində danışmağın mümkün olmayacağını açıq şəkildə bildirir. Həm də sülh dili ilə danışmaqla beynəlxalq təzyiqlərə dözümünü nümayiş etdirik, əlbəttə ki, evsahibliyi edəcəyi beynəlxalq tədbirləri də yüksək səviyyədə keçirəcək. Amma ölkəmizin suverenliyinə yenidən təhlükə yaranacağı təqdirdə hər bir hədəfi yerindəcə məhv etmək gücünü və hüququnu özündə saxlayır. Dövlət başçımızın Cəbrayıla səfəri çərçivəsində səsləndirdiyi vacib mesajların öz ünvanlarına çatdığını və onların ölkəmizə baxışlarında dəyişikliklərin edəcəyini hesab edirəm. Çünki Azərbaycan Cənubi Qafqazın aparıcı və dünya çapında özünəməxsus yerə sahib ölkəsidir".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2024.- 9 oktyabr (№ 221).- S.10.